**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Naxçıvan Dövlət Universiteti**

**Hüquqşünaslıq ixtisası əlavə təhsilə qəbul üzrə test və müsahibə**

**P R O Q R A M I**

- **Qanunvericilik**

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
   - Birinci bölmə (maddə 1-23)
   - Fiziki şəxslər (maddə 24-33, 39)
   - Hüquqi şəxslər (maddə 43-47, 49-56)
   - Müqavilə anlayışı və şərtləri (maddə 389-404-1)
   - Müqavilənin bağlanması (maddə 405-411)
   - Müqavilənin standart şərtləri (maddə 417-424)
4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
   - Birinci bölmə (maddə 1-13)
   - İkinci bölmə (maddə 14-26)
   - Üçüncü bölmə (maddə 41-57)
5. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanunu (maddə 1-19)

- **Dünyagörüşü**

**Azərbaycan tarixi üzrə** test tapşırıqları qədim dövrlərdən müasir dövrədək xalqımızın dövlətçilik ənənələri, Azərbaycan xalqının təşəkkülü və formalaşması, Azərbaycanın məruz qaldığı yad təsirlər və onlara qarşı mübarizə, tarixi proseslərin gedişində ortaya çıxan dövlət qurumlarımız, milli azadlıq hərəkatı, dövlətçiliyimizin bərpası, qorunması, inkişafı, müasir dövrdə zərbaycanın dünyadakı mövqeyi, ölkənin ümumi inkişafını şərtləndirən amillər, I və II Qarabağ müharibəsi haqqında məlumatları əhatə edir.
**Coğrafiya üzrə** test tapşırıqları ölkəmizin təbiəti, təbii ehtiyatları, əhalisi, iqtisadi inkişaf meyilləri haqqında coğrafi bilikləri, insan və təbiətin qarşılıqlı əlaqəsini, qlobal problemlər və bunların Azərbaycana təsiri barədə bilikləri əhatə edir.
**Azərbaycan mədəniyyəti** əhatə edən test tapşırıqları qədim zamanlardan bu günə kimi mədəniyyətimizin keçdiyi tarixi inkişaf yolunu əhatə edir.
**Azərbaycan ədəbiyyatı** əhatə edən test tapşırıqları müsabiqədə iştirak edənlərin müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu, onların xalqımızın inkişafındakı rolunu, taleyüklü hadisə və proseslərə yazıçı mövqeyini özündə əks etdirir.

- **Məntiq**

1. Verbal test tapşırıqları
2. Fiqurlarla bağlı test tapşırıqları
3. Məntiqi-riyazi test tapşırıqları

- **Mətn təhliletmə bacarığı**

Mətn təhliletmə blokunda namizədlərə humanitar, sosialiqtisadi, elmi-puplisistik və s. mövzularda mətnlər və onların əsasında suallar təqdim olunacaq. Bu suallarla namizədlərə ona təqdim olunmuş mətndə verilmiş verbal məlumatları anlamaq, ümumiləşdirmək, mücərrədləşdirmək, mətni məntiqi və tənqidi təhlil etmək, məlumatlardan nəticə çıxarmaq, mətnə əsasən verilmiş mülahizələri (mülahizənin doğruluğunu) qiymətləndirmək bacarıqları yoxlanılacaq. Sualların cavablandırılması zamanı yalnız mətndə əks olunan məlumatlara istinad olunmalıdır.